# AVROPA İTTİFAQI ÖLKƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ƏN MÜHÜM İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

**R.Ə.SADIQOV**
***Bakı Dövlət Universiteti***
***rashad_bdu@mail.ru***

XX əsrinin son onilliyində bəşər tarixində baş vermiş bir çox hadisələr beynəlxalq münasibətlər sistemində də təsirsiz qalmamış, dövlətlərarası münasibətlərə yeni forma və məzmun dolğunluğunu gətirmişdir. Dünyanın siyasi xəritəsi XX əsrin sonunun siyasi reallıqlarına uyğun olaraq yeni müstəqil dövlətlər hesabına xeyli zənginləşmişdir ki, onlardan biri də Azərbaycan Respublikasıdır. Yaranış tarixini 1991-ci ilin 18 oktyabr hadisəsindən – Müstəqillik haqqında Konstitusiya aktından götürən Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur.

Ölkənin suverenlik əldə etməsi və müstəqil dövlət quruculuğu yoluna qədəm qoyması hələ inkişaf üçün aydın, rahat yol demək deyil. 90 il Çar Rusiyası (1828-1918) və 71 il (1920-1991) Sovet imperiyası tərkibində mövcud olmuş Azərbaycan müstəqillik əldə etdikdən sonra 161 illik işğal rejimindən miras qalmış çoxsaylı problemlərlə üzləşməli oldu. Siyasi, iqtisadi və sosial yönümlü mürəkkəb problemlərin həlli axtarışlarında olan Azərbaycan dövləti daha ağır bir imtahanla da sınağa çəkildi. Bu, Ermənistanın respublikamızın ərazisinə genişlənməkdə olan təcavüzü ilə bağlı idi. İşğalçılıq hərəkətlərinin cəzasızlıqla üzləşdiyindən daha da ruhlanan erməni tərəfi nəinki beynəlxalq hüququn dövlətlərin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsi kimi universal prinsipləri qulaqardına vurur, habelə seyrçilik mövqeyində duran dünya birliyinə qarşı yeni-yeni ərazilər zəbt etməklə meydan oxuyurdu.

SSRİ-nin dağılması ilə beynəlxalq münasibətlərdə və xarici siyasət fəaliyyətində yeni səhifə açılır. SSRİ-ni təşkil edən keçmiş müttəfiq respublikalar artıq müstəqil xarici siyasət xətti həyata keçirir. Beynəlxalq həyatda baş verən dəyişikliklər bilavasitə Azərbaycana da toxunmuşdur. Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınması onu beynəlxalq münasibətlər prosesinə cəlb etmişdir (6).

Müstəqil dövlətin müasir durumu və beynəlxalq nüfuzu onun yeritdiyi xarici siyasətdən və dünya birliyinə inteqrasiya meylindən asılıdır. Yeni qaydaların tətbiqi, yeni təfəkkür tərzinin qərarlaşması beynəlxalq əlaqələri genişləndirməyə imkan verir, dövlətlər arasında qarşılıqlı anlaşma və etimad yaradır, beynəlxalq gərginliyi zəiflədir, qarşıdurmaya mane olur. Müasir beynəlxalq həyat vahid sistem təşkil etdiyi üçün heç bir müstəqil dövlət digər ölkələrlə, beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq etmədən, onlarla əlaqə yaratmadan milli təhlükəsizliyini təmin edə bilməz (7, 529).

Dövlətçiliyimizin olduqca böyük sınaq qarşısında olduğu belə geosiyasi vəziyyətdə diplomatiyamızın son dərəcə dəqiqliyi ilə seçilən fəaliyyəti, düzgün və qətiyyətli taktiki gedişləri, aydın strateji xətti, bir sözlə, ölkəmizin mövcud çətinliklərdən çıxış yolu və sonrakı tərəqqisini təmin edən işlək xarici siyasət doktrinasının zəruriliyi isbata ehtiyacı olmayan aksiom tələbi idi.

İstiqlaliyyəti qorumağa təminat verən xarici siyasətin strateji yönümlərindən biri kimi, Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması diplomatik, beynəlxalq münasibətlərin qurulması, beynəlxalq və regional təşkilatlara üzv qəbul edilməsi, habelə mühüm beynəlxalq konvensiyalara qoşulması həyati məsələlər idi. Dövrün siyasi ab-havasının mövcud reallıqlarından çıxış edən yenicə müstəqilliik qazanmış respublikamız qısa müddətdə dünyanın 130-dan çox ölkəsi tərəfindən tanındı, ilkin olaraq 1991-ci il dekabrın 8-də İslam Konfransı Təşkilatının (İKT), 1992-ci il yanvarın 20-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), həmin ilin martın 2-də Birləşmiş Millətlər Təşkilatı (BMT) və b. nüfuzlu beynəlxalq təşkilatlara üzv qəbul edildi. Uşaqların sağlamlığının müdafiəsinin və inkişafının təmin edilməsi haqqında; Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyası; Ümumdünya mədəni və diplomatik hüquqları barədə 1946-cı il 13 fevral tarixli Konvensiyaya və s. qoşuldu (3, 7-8).

Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü və nüfuzu, uzaq-görən siyasəti sayəsində tarixi İpək Yolunun bərpası ilə bağlı Ümum-dünya Kommunikasiya proqramının həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması, proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərarın qəbul edilməsi də ölkəmizin iqtisadi tərəqqisinə təkan verməklə yanaşı, onun beynəlxalq və regional siyasətdə mövqeyinin güclənməsini şərtləndirir.

Azərbaycan Respublikasının xarici siyasətində xarici təşkilatlarla bərabər, eyni zamanda qonşu dövlətlərlə, Qərbi Avropa ölkələri və ABŞ-la, bir sözlə, diplomatik münasibətləri olan bütün dövlətlərlə normal, qar-şılıqlı etimada və inama əsaslanan münasibətlər yaratmaqdan ibarət oldu. Dünya birliyi dövlətləri ilə çoxtərəfli və ikitərəfli münasibətlər həm Qərb, həm də Şərq dünyası ilə mümkün qədər çevik və məqsədyönlü müsbət münasibətlər yaradılması olduqca vacib bir məsələ idi. Yaxın tariximizdən məlum olduğu kimi, respublikamız müstəqillik əldə etdiyi ilk illərdə respublika rəhbərliyinin Türkiyə orientasiyalı xarici siyasət xətti götürməsi nəticəsində, öz vəzifəsini və diplomatiyanın vəziyyətini nəzərə almadan regionda qonşu olan digər dövlətlərə qarşı siyasəti müsbət deyildi. Lakin xüsusilə qeyd etmək lazımdır ki, 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin yenidən dövlət başçısı olmasından və balanslaşdırılmış xarici siyasət kursu götürməsindən sonra Azərbaycanın digər qonşu respublikalarla münasibətlərində müəyyən normallaşma özünü göstərdi. Prezident Heydər Əliyev ölkə daxilində həmin dövrdə baş qaldırmış dövlət çevrilişi ənənəsinə son qoydu, həmçinin 1994-cü ilin may ayında atəşkəs imzalandı (3, 7-8).

Ölkəmizin xarici siyasətinin ən mühüm istiqamətlərindən birini, məhz Avropa İttifaqı ölkələri ilə əməkdaşlıq təşkil edir. Bu əməkdaşlığı şərtləndirən bəzi amillər mövcuddur. Dünyanın inkişaf etmiş ölkələrindən 18-i məhz Qərbi Avropada yerləşir. Bu gün yüksək inkişaf səviyyəsinə malik olan ölkələrlə əməkdaşlıq etməklə Azərbaycan müxtəlif sahələrdə iş apararaq inkişaf səviyyəsini yüksəltmək məqsədilə

onlardan maliyyə yardımı almaq imkanı əldə edir. İqtisadi baxımdan yüksək inkişaf etmələri bu dövlətlərin siyasi məsələlərə də təsir imkanını artırır. Bu faktordan isə Azərbaycan özünün ən mühüm problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində istifadə edə bilər.

Eyni zamanda, Azərbaycanı da Avropa dövlətləri üçün maraqlı edən bir neçə amil mövcuddur. Azərbaycan vasitəsi ilə Avropa ölkələri Asiya bazarına çıxmaq imkanı əldə edir. Onlar region ölkələrinin iqtisadi potensialından bəhrələnə bilərlər, bu baxımdan, ölkəmizin zəngin enerji ehtiyatları Avropanın yüksək inkişaf etmiş sənayesi üçün xammal rolunu oynayır. Ölkə ərazisində heç bir xarici ölkənin silahlı qüvvələrinin olmaması Avropa dövlətlərinin Azərbaycana daha inamlı şəkildə gəlmələri üçün əsas verir. Regionun ən böyük və mühüm dövləti olan Rusiyanın Ermənistana yardım etməsinin kökündə böyük Avropa dövlətlərinin Azərbaycanla sıx əməkdaşlıq və qarşılıqlı əhəmiyyəti olan siyasət aparmaqla bu regiona daxil olmasının və möhkəmlənməsinin qarşısını almaq dayanır.

Son 15 ilə yaxın müddətdə Avropa İttifaqı (Aİ) digər postsovet və Avrasiya məkanı fonunda daha çox diqqət və xüsusi yanaşma tələb edən daha mühüm region kimi baxılan Cənubi Qafqaz dövlətlərinə və xalqlarına münasibətdə daha dəqiq və ardıcıl strategiyanın işlənib hazırlanması yolunda irəliləmişdir. Bundan başqa, Cənubi Qafqaz daha çox Avropa İttifaqının öz maraqları üçün birinci dərəcəli əhəmiyyətli region kimi qəbul edilir. Avropa ölkələrinin düşündüklərinə əsasən, regionda mühüm əhəmiyyətə malik Azərbaycan etibarlı və təhlükəsiz neft və qazın təchizatında olduqca böyük rol oynayır. Bu, yalnız Azərbaycanın çox dəyərli xammala malik olması ilə deyil, xüsusilə, Azərbaycanla Avropa arasında əlaqələrin digərlərinə nisbətən daha sağlam olması faktı ilə bağlıdır. Azərbaycan Asiya və ərəb dünyasına doğru körpü mövqeyindədir, böyük strateji əhəmiyyətə malikdir və Avropa ilə əməkdaşlıq yolu ilə bu daha da inkişaf edə bilər.

Azərbaycan siyasi dairələrində belə bir fikir mövcud idi ki, Azərbaycan nefti Dağlıq Qarabağ probleminin həllində əsas rol oynaya bilər. Bununla bağlı müstəqilliyimizin ilk illərində ayrı-ayrı planlar hazırlandı, cəhdlər göstərildi və 1993-cü ilin noyabrında neft müqaviləsinin bağlanmasına dair yeni danışıqlar aparıldı. 1994-cü il sentyabrın 20-də Gülüstan sarayında ARDNŞ ilə xarici neft kompaniyaları arasında Azəri, Çıraq yataqlarının bütövlükdə, Günəşli yatağının isə suyun 200 metrdən dərin hissəsində müştərək işləmək haqqında «Əsrin müqaviləsi» imzalandı. Dünyanın aparıcı dövlətlərinin, ən qüdrətli şirkətlərinin iştirak etdiyi, sərmayə qoyduğu neft müqavilələri Azərbaycanın coğrafi-strateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil kimi uğurla həyata keçirilir. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi artıq layihə deyil, reallıqdır (4).

Enerji təhlükəsizliyinin təmin edilməsi nöqteyi-nəzərindən Xəzər dənizi neft-qaz rusursları Avropa İttifaqı ölkələri üçün əsas maraq kəsb edir. Burada Aİ-nin rolu Qərbi Avropanın və onun Şimal dənizindəki neft-qaz əyalətində enerji resuslarının tədricən tükənməsi faktoru ilə müəyyənləşir. Aİ ökələrinin iqtisadiyyatı üçün strateji resusların stabil tədarükünün təmin edilməsinə artan ehtiyac neft və qazın idxalı üçün yeni mənbələrin axtarılmasına vadar edir. Yaxın region, əlbəttə ki, Qərbi Avropa kompaniyalarının böyük karbohidrogen ehtiyatlarını aşkar etdiyi Xəzərdir. Aİ bu strateji xammalın öz bazarlarına daxil olmasında çox

maraqlıdır. Bu məqsədlərin həyata keçirilməsi üçün Aİ Xəzər regionuna aktiv kapital qoyur. Aİ bu resursların mənimsənilməsi ilə bağlı olaraq, neft və qazın öz bazarlarına daşınması vasitələrinə böyük diqqət ayırır (8, 398).

2004-cü ildə Avropa İttifaqının daxili dəyişiklikləri Cənubi Qafqaza böyük diqqət yetirilməsini tələb etdi. Avropa İttifaqının genişlənməsi onu, ümumiyyətlə, Qafqaza coğrafi baxımdan daha da yaxınlaşdırdı və bununla əlaqədar olaraq regionda siyasət, iqtisadiyyat və təhlükəsizlik məsələlərinə maraq artdı. Aİ-nin Cənubi Qafqazda həyati maraqları mövcuddur. Regionda beynəlxalq cinayətkarlıqla və qanunsuz ticarətlə əlaqədar mövcud olan problemlər Avropaya da təsir edir. Bundan əlavə, Azərbaycan neftini Avropa bazarlarına daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməri də bilavasitə Aİ-nin enerji təhlükəsizliyinə təsirini göstərir və onun iqtisadi rifahını regiondan asılı vəziyyətdə saxlayır. Aİ Azərbaycan neft və qazından əldə etdiyi mənfəəti nəzərə alaraq, münaqişə potensialının azaldılması üzrə yardım edilməsi işində öz vəzifələrini nümayiş etdirməlidir.

Avropa dövlətləri ilə əlaqələr demək olar ki, bütün istiqamətlərdə siyasi, iqtisadi-ticarət və mədəni-maarif istiqamətlərində qurulur. Siyasi sahədə möhkəm əlaqənin yaradılmasının əsas məqsədi Azərbaycanın dövlət müstəqilliyini, suverenliyini daha da möhkəmləndirmək, ölkədə stabilliyi qoruyub saxlamaq, mövcud olan böyük problemin – Qarabağ düyününün Azərbaycanın xeyrinə həllini tezliklə həyata keçirməkdən ibarətdir. İqtisadi istiqamətdə əlaqələrin qurulmasının əsas məqsədi ölkənin iqtisadi qüdrətini artırmaq, neft sənayesi ilə bərabər və ona arxalanaraq, digər sənaye sahələrinin inkişafını təmin etməkdən ibarətdir. Mədəni-maarif sahəsində əməkdaşlıq etməkdə əsas məqsəd elmi-texniki tərəqqinin yəni, nailiyyətlərdən ölkəmizdə geniş istifadə etmək və Azərbaycan elmini daha da inkişaf etdirməkdən ibarətdir. Ümumiyyətlə, bütün bunlar ölkənin qısa müddət ərzində azad bazar iqtisadiyyatı və demokratiya yolu ilə inkişafına nail olmaq, erməni millətçilərinin əsassız ərazi iddiaları ilə başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Qafqaz dünyanın ən qaynar regionlarından birinə çevrilmişdir. Bu müddət ərzində Azərbaycan əhalisi silahlı toqquşma, sona çatmayan münaqişə, həmçinin həm müharibə, həm də sülh şəraitində yaşayır (2, 243).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq-hüquqi təzahürləri aydın görünür. Azərbaycan torpaqlarının işğal olunması, işğal olunmuş ərazilərdən qovulmuş insanların beynəlxalq müqavilələrdə ifadəsini tapmış yaşamaq, azadlıq, mənzil, mülkiyyət, köləliyə, işgəncəyə məruz qalmamaq və s. hüquqlarının pozulması Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini pozmasını açıq göstərir. Qafqazda hərtərəfli, ədalətli sülhün bərpası münaqişədə iştirak edən tərəflərin kollektiv səyi ilə beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması əsasında əldə edilə bilər.

Bütün yuxarıda sadalanan məsələləri həll etmək üçün ölkəmizin qarşısında duran bir sıra vəzifələrə xüsusi diqqət yetirmək lazımdır. Böyük dövlətlərlə – İngiltərə, Fransa, Almaniya və bir sıra Avropa ölkələri ilə əlaqələrə xüsusi diqqət yetirmək, onlarla siyasi, iqtisadi, ticarət, elmi-texniki, mədəni sahələrdə əlaqələri genişləndirmək, beynəlxalq və regional təşkilatlarla qarşılıqlı iqtisadi, siyasi, mədəni iş aparmaq, böyük dövlətlərin Azərbaycanda olan maraqlarına istinad edərək, onlarda Azərbaycan haqqında müsbət rəy yaratmaq, bu mümkün olmadıqda isə onları neytrallaşdırmaq, Qarabağ məsələsinin həllində

Azərbaycanın mənafeyi ilə böyük dövlətlərin maraqlarını əsas tutaraq birləşdirmək, Avropa dövlətlərində yaşayan Azərbaycan diasporası ilə sıx əlaqələrin yaradılması və s. bu kimi məsələlər diqqət mərkəzində olmalıdır.

Hazırda əsas vəzifə demokratiyanın bütün mexanizmlərindən geniş istifadə etmək, cəmiyyət işlərinin idarə edilməsində insanların fəal iştirakına nail olmaq, bütün ictimai qüvvələri strateji xəttin həyata keçirilməsi uğrunda mübarizəyə cəlb etməkdən ibarətdir. Məhz belə bir ictimai zəmin əsasında fəaliyyət göstərən demokratiya inkişaf edərək cəmiyyətin özünün idarəsinə yönələ bilər (5, 177).

Bütün bəşəriyyətlə birgə Azərbaycan xalqı da XXI əsrə, üçüncü minilliyə böyük nikbinliklə qədəm qoyub. Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və potensialından istifadə edərək, Şərq ilə Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir. Azərbaycan İpək Yolunun bərpası, Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizindən istifadə edilməsi və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının dünya bazarına nəqli üçün çox böyük səylər göstərir. Azərbaycan Respublikası artıq dünya birliyinin ayrılmaz tərkib hissəsidir.

Enerji sahəsi sabitlik və inteqrasiyanın mühüm amili, Avropa xarici və təhlükəsizlik siyasətinin mühüm tərkib hissəsi hesab olunur. Bu amilə görə Azərbaycan regionun lideri kimi tanınır. Burada həm Azəbaycan, həm də Avropa üçün həqiqi bir uğurun tarixi mövcuddur. Azərbaycan öz ehtiyatlarının köməyi ilə uzunmüddətli inkişafı təmin etməklə yanaşı, Avropa, eləcə də, qlobal enerji təhlükəsizliyinə öz töhfələrini verməkdədir. Avropanın enerji təhlükəsizliyi müxtəlif növ ehtiyatlardan istifadə, açıq və rəqabətli enerji bazarları vasitəsi ilə təmin oluna bilər. Azərbaycan da buna artmaqda olan əhəmiyyətli töhvəsini verməkdədir. Azərbaycanın gələcək təhlükəsizliyi və inkişafı neft ehtiyatlarının effektiv istifadə vasitəsilə mümkün olacaq (1).

Avropanın bir hissəsi olmaqla, onun mədəniyyətini, intellektual irsini izləyən, demokratik dəyərləri ilə bölüşən bir dövlət kimi Azərbaycan Avropa ailəsinə inteqrasiya məsələsinə strateji məqsəd kimi yanaşır və özünü Avro-Atlantik təhlükəsizlik strukturunun ayrılmaz bir hissəsi hesab edir. Azərbaycanın strateji məqsədi Avro-Atlantik məkanının siyasi, təhlükəsizlik və iqtisadi strukturlarına, tarixi istiqamətinin ardıcıl inkişafına və cəmiyyətimizə xas olan siyasi, iqtisadi proseslərə əsaslanır. Qazanılmış müstəqilliyi əbədi etmək üçün ölkənin daxili və onun bilavasitə davamı olan xarici siyasətində dövlətin milli maraqları hər şeydən üstün tutulmalı və bu məqsədlərin reallaşdırılması üçün diplomatiyanın bütün üsul və vasitələrindən kifayət qədər səmərəli istifadə edilməlidir. Bu gün ölkə ərazisində bərqərar olan insan hüquq və azadlıqlarının aliliyindən faydalanan müdrik xalqımız 2003-cü və 2008-ci illərdə keçirilmiş prezident seçkilərində Heydər Əliyev kursunun davamına səs verdi və müəyyən edilmiş kursun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasi xətti uğurla davam etdirməkdədir. Azərbaycanın aparılan uğurlu xarici siyasəti dövlətçiliyimizin möhkəmləndirilməsi və inkişafı məqsədlərinə xidmət edir.

**ƏDƏBİYYAT**

1. Azimov A. Foreign policy. Priorities of Azerbaijan. // Azerbaijan Investment Guide, Washigton: 1997, p.22.
2. Hüseynova H. Azərbaycan inteqrasiya prosesləri sistemində. Bакı: Hərbi Nəşriyyat, 1998, 280 s.
3. Qasımov M. Azərbaycanın xarici siyasəti (кonsepsiya məsələləri). Bакı: Mütərcim, 1997, 124 s.
4. Qədirli E. Neftimizin yeni erası. «Respubliкa» qəz., Bакı, 2001, 1 sentyabr.
5. Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərкən: modernləşdirmə xətti. Bакı: Şərq-Qərb, 2008, 213 s.
6. Sadıqov R. Azərbaycan Respubliкasının müasir beynəlxalq münasibətlər sistemində metodoloji problemləri və inкişaf meylləri // Cəmiyyət və Lider: Beynəlxalq elmi-analitiк hüquq jurnalı. 2006, may-iyun, s. 26-33.
7. Системная история международных отношений, в четырех томах, том 3. Под ред. А.Д.Богатурова., М.: НОФМО, 2003, 720 с.
8. Современные международные отношения и мировая политика: учебник / А.В.Торкунов, И.Г.Тюлин, А.Ю.Мельвиль и др; Моск.гос.ин-т междунар. Отношений МИД России; отв. Ред. А.В.Торкунов. М.: Просвещение, 2005, 991 с.

## СОТРУДНИЧЕСТВО СО СТРАНАМИ ЕВРОПЕЙСКОГО СОЮЗА КАК ОДНО ИЗ ВАЖНЕЙШИХ НАПРАВЛЕНИЙ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА

**Р.А.САДЫГОВ**

**РЕЗЮМЕ**

Сотрудничество именно с Европейскими странами составляет одну из важнейших направлений внешней политики нашей страны. Существуют несколько факторов, которые обуславливают это сотрудничество. 18 из 25 развивающихся стран мира находятся именно в Западной Европе. Сегодня в сотрудничестве с высокоразвивавшимися странами Азербайджан, работая в разных областях с целью повышения уровня развития, приобретает возможность получать финансовую помощь у них. Экономическое развитие этих стран так же повышает их влияние на политические проблемы. А этот фактор Азербайджан может использовать в решении своей самой важной проблемы, как конфликт Нагорного Карабаха.

## COOPERATION WITH EUROPEAN UNION COUNTRIES AS ONE OF THE MOST IMPORTANT DIRECTIONS OF FOREIGN POLICY OF AZERBAIJAN

**R.A.SADIGOV**

**SUMMARY**

Cooperation with European countries is one of the most important directions of the foreign policy of our country. There are some factors conditioning this cooperation. 18 of 25 developed countries of the world are situated in Western Europe. Today cooperating with highly developed countries and working in several areas in order to develop, Azerbaijan gains opportunity to get financial support. The economic development of the countries increases their opportunities to influence the political problems. Azerbaijan can use this factor to solve its most important problem of Nagorno Karabakh.